Xalq qəzeti
26 iyul 2024-cü il, cümə
S.5.
RƏSMİ

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 350**

**Bakı şəhəri, 22 iyul 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 951; 2024, № 3, maddə 314 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 22 may tarixli 275 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 14.3.2-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 14.3.3–14.3.6-cı yarımbəndlər əlavə edilsin:

"14.3.3. malların buraxılışı həyata keçirildikdən sonra 3 (üç) il müddətində bəyannaməçi malları müvafiq gömrük proseduru altında yerləşdirməsi ilə əlaqədar öhdəliklərini yerinə yetirməli olduqda;

14.3.4. Gömrük Məcəlləsinin 46-cı fəslinə uyğun olaraq gömrük borcu üzrə ödənilmiş gömrük ödənişlərinin qaytarılması barədə gömrük orqanının qərarı olduqda;

14.3.5. bu Qaydaların 14.10-cu bəndində göstərilmiş hal istisna olmaqla, aparılmış gömrük auditi nəticəsində gömrük bəyannaməsində qeyd olunan məlumatlarda düzəliş edilməli olduqda;

14.3.6. yuxarı gömrük orqanının və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda.".

**2.** 14.4-cü bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Gömrük bəyannaməsində düzəliş edilməsi bu Qaydaların 11 nömrəli əlavəsində göstərilmiş formaya uyğun olaraq həyata keçirilir.".

**3.** 14.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

"14.10. Gömrük auditi nəticəsində malların düzgün gömrük proseduru altında yerləşdirilməməsi müəyyən edildikdə gömrük bəyannaməsi malların buraxılışından sonra ləğv edilir.".

**4.** 1-9 nömrəli əlavələrin 26-cı qrafasının adında "ölkəyə daxil olan" sözləri "ölkə daxilində" sözləri ilə əvəz edilsin.

**5.** 2 nömrəli əlavənin "Qeyd" hissəsindən "18-ci", "25-ci", "26-cı" və "27-ci" sözləri çıxarılsın.

**6.** 11 nömrəli əlavə əlavə edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***